**1. Qəbələ və Şortəpə yaşayış məskənlərinə aid xüsusiyyətlərdəndir:**
1. Xüsusi torpaq müdafiə səddi və dərin xəndəklə əhatə olunmuşdular.
2. Qədim Albaniya dövlətinin ərazisində yerləşirdilər.
3. Orta Tunc dövründə meydana gəlmişdilər.
4. Alanların hücumları nəticəsində böyük dağıntılara məruz qalmışdılar.
A) 3, 4
B) 1, 2
C) 2, 3
D) 1, 3
E) 2, 4

**2. Uyğunluğu müəyyən edin:**
1. Xarəzmi
2. Biruni
3. Təbəri
a. Tarix ensiklopediyasını yaratmışdır.
b. Xürrəmilər hərəkatı haqqında məlumat vermişdir.
c. Yerin günəş ətrafında fırlanması fikrini irəli sürmüşdür.
d. Cəbr elminin təməlini qoymuşdur.
A) 1-d, 2-c, 3-a,b;
B) 1-b, 2-a, 3-c;
C) 1-d, 2-c, 3-b;
D) 1-c, 2-b, 3-a;
E) 1-a, 2-c, d, 3-b;

**3. Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı xronoloji ardıcıllığı müəyyən edin.**
1. Dövlət Bankının açılması
2. Parlamentin fəaliyyətə başlaması
3. Təbrizdə konsulluğun açılması
A) 2, 1, 3
B) 1, 2, 3
C) 3, 1, 2
D) 3, 2, 1
E) 2, 3, 1

**4. Roma və Parfiya mədəniyyəti üçün oxşar cəhəti müəyyən edin:**
A) Latın əlifbasından istifadə edirdilər
B) Yunan mədəniyyətinin təsirinə məruz qalmışdılar
C) E.ə. I əsr ən inkişaf etmiş dövrləri sayılır
D) Ölüləri yeraltı sərdabələrdə dəfn edirdilər
E) Səma cisimlərini müşahidə etmək üçün zikkuratlar inşa edirdilər

**5. XII əsrin I yarısında paytaxt şəhərə çevrilmiş ərazini müəyyən edin:**




A) 1 B) 2 C) 3 D) 4 E) 5

**6. XVIII əsrin 90-ci illərinə aiddir:**
A) Kapetinqlər sülaləsinin hakimiyyətə gəlməsi
B) Yutlandiya dəniz döyüşünün baş verməsi
C) Osmanlı dövlətinin Krımın müstəqilliyini tanıması
D) ABŞ-da Konstitusiyaya ilk düzəlişin edilməsi
E) İngiltərədə respublikanın yaranması

**7. Xronoloji ardıcıllığı müəyyən edin.**

1. Folklend böhranının baş verməsi
2. Almaniya Federativ Respublikasının yaranması
3. SSRİ-nin dağılması
4. Parisdə Avropa üçün xartiyanın qəbul edilməsi

A) 1, 3, 2, 4
B) 4, 3, 2, 1
C) 2, 3, 4, 1
D) 2, 1, 4, 3
E) 1, 2, 4, 3

**8. Hadisə-nəticə əlaqəsini müəyyən edin:**

| | Hadisə | Nəticə |
|---|---|---|
| A) | Niderland burjua inqilabının baş verməsi | Dünyada birinci burjua respublikasının yaranması |
| B) | Böyük Coğrafi kəşflərin keçirilməsi | Venesiyanın güclü dəniz dövlətinə çevrilməsi |
| C) | Fransanın Yüzillik müharibədə qələbə qazanması | Ölkədə silki monarxiyanın yaranması |
| D) | Xaç yürüşlərinin başa çatması | İtaliyada vahid dövlətin yaranması |
| E) | İtaliya şəhərlilərinin senyorlar üzərində qələbə qazanması | İtaliyada vahid dövlətin meydana gəlməsi |

**9. Bizansda quldarlıq qaydalarının feodalizmlə əvəz olunmasını sürətləndirdi:**

A) Ərəblərin ən varlı əyalətləri ələ keçirməsi
B) Slavyanların imperiya ərazisində məskunlaşması
C) Qərbi Roma imperiyasının süquta uğraması
D) "Daxmalı qullar" və kolonların sayının çoxalması
E) İmperator Yustinianın apardığı uğurlu müharibələr

**10. Rusiyanın Hacı Davudun kömək təklifinə müsbət cavab verməməsinin səbəblərindəndir:**

A) Nadir xanın Rusiyaya müraciət etməsi
B) Rusiya Səfəvilərlə Osmanlıya qarşı ittifaq qurmuşdu
C) Hacı Davud daxili müstəqilliyini saxlamaq istəyirdi
D) Hacı Davud Osmanlı dövlətindən də yardım alırdı
E) Osmanlı dövləti ilə müharibə aparırdı

**11. II Sam mirzədən fərqli olaraq, III Sam mirzə:**

1. Öz adına pul zərb etdirmişdi
2. Azərbaycan xanlarına hakimiyyətini qəbul etdirmək üçün fərmanlar göndərmişdi
3. Fəaliyyətinə Təbriz şəhərində başlamışdı
4. Qazıqumuxlu Surxay xanla müttəfiq idi

A) 1, 3
B) 2, 3
C) 3, 4
D) 1, 2
E) 2, 4

**12. Xronoloji ardıcıllığı müəyyən edin:**

1. Yakobin diktaturasının devrilməsi
2. ABŞ konstitusiyasının qəbul edilməsi
3. Çində ilk ingilis məskəninin salınması
4. Qacarlar sülaləsinin hakimiyyətə gəlməsi

A) 2, 3, 4, 1
B) 1, 2, 4, 3
C) 3, 1, 4, 2
D) 4, 2, 1, 3
E) 3, 2, 1, 4

**13. Uyğunluğu müəyyən edin:**

1. Borçalı sultanlığı
2. Xaçın məlikliyi
3. Ərəş sultanlığı

a. 1795-ci ildə mahal kimi Şəki xanlığına qatıldı
b. XVIII əsrin 50-ci illərində Kartli hakimi tərəfindən işğal edildi
c. Əhalisi yerli xristian-albanlar idilər

A) 1-b, 2-c, 3-a;
B) 1-a, 2-b, 3-c;
C) 1-c, 2-b, 3-a;
D) 1-b, 2-a, 3-c;
E) 1-a, 2-c, 3-b;

**14. Uyğunluğu müəyyən edin:**
1. Mirzə Mehdi xan
2. Məhəmməd Kazımi
3. Əbdürrəzaq bəy Dünbuli
a. "Dünyanı fəth edən Nadirin tarixi"
b. "Dünyanı bəzəyən Nadirin tarixi"
c. "Məasiri-sultaniyyə"
A) 1-b, 2-c, 3-a
B) 1-a, 2-b, 3-c
C) 1-c, 2-b, 3-a
D) 1-b, 2-a, 3-c
E) 1-a, 2-c, 3-b

**15. Göstərilənlər aiddir:**
1. Kəndlilərin təhkimçilik hüququnun rəsmiləşdiril-məsini başa çatdırdı
2. Zadəganların malikanələrinə mülk hüququnun verilməsini təsdiq etdi
A) I Pyotrun həyata keçirdiyi islahatlara
B) Fransada Direktoriyanın qərarlarına
C) 1649-cu il Məclis Qanunnaməsinə
D) Uzunmüddətli parlamentin islahatlarına
E) ABŞ-da "Hüquqlar haqqında bill"ə

**16. Məntiqi ardıcıllığı tamamlayın:**
1. Osmanlı qoşunlarının Naxçıvanı tərk etməsi
2. Naxçıvan əhalisinin erməni təcavüzünə məruz qalması
3. .......................................................................
A) Naxçıvan şəhərində erməni idarəçiliyinin yaradılması
B) Sovet qoşunlarının Naxçıvanı ələ keçirməsi
C) Veysəl bəyin başçılığı ilə türk ordusunun Naxçıvana girməsi
D) Qafqaz İslam Ordusunun Naxçıvanı tabe etməsi
E) Araz-Türk Respublikasının yaradılması

**17. Xronoloji ardıcıllığı müəyyən edin:**
1. Yuxarı Qarayazının Gürcüstana verilməsi
2. Borçalı qəzasının mərkəz hissəsinin Gürcüstana verilməsi
3. Naxçıvan MSSR-in yaradılması
4. DQMV-nin yaradılması
A) 3, 1, 4, 2
B) 1, 2, 4, 3
C) 2, 1, 4, 3
D) 4, 2, 1, 3
E) 2, 3, 4, 1

**18. Prezident İlham Əliyevin üçüncü prezidentliyi dövründə baş vermişdir:**
A) Dünya azərbaycanlılarının ikinci qurultayının keçirilməsi
B) Respublikada bütün çadır şəhərciklərinin ləğv edilməsi
C) Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin işə salınması
D) "XXI əsrin müqaviləsi"nin imzalanması
E) Təbrizdə Azərbaycan konsulluğunun açılması

**19. Rusiya və NATO arasında "bir-biri ilə düşmənçilik etməyəcəkləri" barədə razılaşma nəticəsində:**
A) Bloklara qoşulmama hərəkatı meydana gəldi
B) Soyuq müharibə başa çatdı
C) NATO-nun Şərqə doğru irəliləməsinə şərait yarandı
D) Dünyada bəzi hərbi münaqişələrə son qoyuldu
E) Rusiya NATO-ya qəbul olundu

**20. Sen-Jermen və Trianon müqavilələri üçün oxşar cəhəti müəyyən edin:**
A) Avstriya-Macarıstan imperiyasının dağılması qəbul olunurdu
B) Bolqarıstanın öz ərazilərini güzəştə getməsi nəzərdə tutulurdu
C) Sakit okean sahilindəki mülklərin birgə qorunması nəzərdə tutulurdu
D) Sovet Rusiyası müqavilələrdə tərəf kimi iştirak edirdi
E) Versal sisteminə daxil deyildilər

**21. Abolistionistlər hərəkatının baş verdiyi dövlət:**
A) Osmanlı
B) Böyük Britaniya
C) Yaponiya
D) ABŞ
E) İspaniya

**22. XIX əsrin 50-ci illərində imzalanmış Paris müqaviləsinin şərtlərinə aiddir:**

A) Bolqarıstan və Rumıniyaya müstəqillik verildi.
B) Azov qalası Osmanlıya qaytarıldı.
C) Qara dəniz bütün ölkələrin ticarət gəmiləri üçün açıq elan edildi.
D) İngiltərə ABŞ-yə müstəmləkə kimi baxmaqdan imtina etdi.
E) Rusiya ilk dəfə Baltik dənizi sahillərinə çıxdı.

**23. XIX əsrin 40-cı illərinin I yarısına aiddir:**

A) İrəvan quberniyasının yaranması
B) Qafqaz Canişinliyinin yaranması
C) Şamaxı quberniyasının mövcud olması
D) Hərbi verginin alınması
E) İlk Alman koloniyalarının yaranması

**24. Aşağıdakıların aid olduğu dövlətin ərazisini xəritə-sxemdə müəyyən edin:**

♦ Xəzərlərə qarşı uğurlu mübarizə aparmışdır.
♦ Bizans, erməni, gürcü qoşunlarını məğlub etmişdir.




A) I  B) II  C) III
D) IV  E) V

**25. Aşağıdakıların aid olduğu dövlətin ərazisini xəritədə müəyyən edin.**

– XVI əsrin əvvəlində Osmanlılar tərəfindən məğlub edilmişdir.
– XVI əsrin sonlarında ingilislər tərəfindən məğlub edilmişdir.




A) 1  B) 2  C) 3
D) 4  E) 5